

■ Sərap KADIOĞLU

## UZUN YOL TƏLAŞI

Mən savaşı qarışqadan öyrəndim,
Qəhrəman deyiləm ki, sevgilim,
Bulaq kimi sevmək hünərimdi bəlkə də,
Qovğada mahir deyiləm.

Sənə qaçım deyərkən,
Saçlarımda bahardan qalma
Son quşlar da uçub getdilər.
Yenə ürəyimə yenildi ağlım,
Uzun yol təlaşına düşdü zamansız
Əllərimdən öncə yaşlanan ayaqlarım.

Mən səni anladıram hələ
Dünyaya meydan oxuyarcasına
Sən gülüncə deyirəm
Yanağımdakı çuxur dərinləşir bir az da,
Daha da böyüyür bəbəklərim.
Xəyallarım ucsuz-bucaqsız bir lalə tarlası
Və ağ bir köhlən qaçır o baş-bu başa.

Sən varkən Allahla da aram yaxşıdır,
məsələn, hər səhər gün ağarmadan
Təşəkkür etməyi öyrəndim ona,
Ram olmuş bir qəlbi qoymaqdayam ovuclarına.
Mən səninlə gözələm.
Artıq deyinmirəm çata bilmədiyim tramvaya,
Hətta tərgitdiyim siqaretə də.

Bilirəm sən olmasan lalələr
Ovcuma qoymaz narın yarpaqlarını
Yasəmənlər ayırmaz məni hüznümdən.
Kim alışdırar qığılcımdan sevgiləri.
Gözlərim axmazmı kipriklərimdən.
Tutduğum yoldur gözlərin axşamları.

Halbuki dünən həyətdə diyircək oğurlayan uşaqlar
Hər axşam sənə oxunan misralarımı.
Boş yerə romantizmə hökm edib indilərdə
Əllərində kor mizrab və akordsuz bağlama
Yorğun türkülərlə dünyanı xilas edirlər.

Amma mən savaşı qarışqadan öyrəndim,
Qəhrəman deyiləm ki, sevgilim,
Bulaq kimi sevmək hünərimdi, bəlkə də,
Qovğada mahir deyiləm.

## ALLAHA İSMARLADIQ

*- Səsim yorulmasaydı*
*sözüm göyə yüksəlməzdi.*

Sən nə zaman getsən
Heç bilmədiyim bir şəhərdə
Heç tanımadığım biri oluram.

Hüzndən çiçəkləri qoyaraq qucağıma
Dünyanı yağış kimi üzərimə yağdırdın.
Arınmaq üçün yeridim şeirlərlə.

Köksümdə olan sirri göy üzünə göndərib
Yorğun şeirimi də kölgəsinəcə əkdim.
Qızmar gündə sərinliyim olsun deyə.

Kədərli sözləri ciblərimə doldurub,
Axşamları evimə tənhalığı gətirdim.
Ölü qaranquşlar qondular köksüm üstə.

Sevəmmədim dinməyi,
səsimi şeirlə yandırıb-yaxdım.
Masada qaldı əfsuslarım.
Biz atamızdan susmağı öyrəndik,
Ağlamağımız belə yarımçıqdı.

Bir təbəssüm ovcuna qoyduğumuz röyalar,
Haqq-hesab çəkir indi qırışmış alınlarda.
Keçib getdi daha gün, yaxınlaşmaqda axşam.
Əfsus ki, sevmək incə mərəzdir tənhalarda.

Asıldığı yerdən, yırtıldı əbamız,
Müjdəli sabahları təhlükələrə atdıq.
"Xızırla bir saatı" çox gördük özümüzə.
Cənnət kirəsini də bizlər nisyəyə yazdıq.

Şeir yorğun insan işidi.
Bir az da bacarıqsız yaşamaqdadır,
Şeirdən ötəsi susmaqdısa
Səsimizi göyə asıb ismarladıq Allaha.

## ƏSLİNDƏN AĞIR KÖLGƏ

*- Səni sevirəm deməyə utanan uşaqlardıq biz*
*Biri söyləsin onlara hər şeydən çox sevdiyimi*

Çınqıl daşı yığardıq diyircək deyə bir zamanlar,
Daş nə qədər yumru olsa, mən o qədər gözəldim.
İlk hüznümə yenilmişdim ilk fəndimi atınca
Bulaqlar nəyi çağlar susqun dağlardan öyrəndim.

İçində ağlardı anam, göy üzünə köçərdi,
Canım atam, sən yox ikən küçədə heç gülmədim.
Xəbərin varmı uşaqkən üzünü unutmuşdum
Unudur çox darıxan, xatırlayınca həzz aldım.

Könlündədir avazı neçə ölgün səslərin,
Üşüdükcə qəlbimin üstə şeirlər sərdim.
Anamdan da xəbərsiz çox sirr verdim Allaha.
Boyumdan böyük sevincə, laldan "sus" diləndim.

Üzünə bəs qədər düşərmiş hüzn kölgəsi,
Yalqızlıq qapısından bu şəhərə səhvən gəldim.
Röyanı qoyub, yuxuda yol alarkən vəslinə
Özündən ağır kölgə, sən demə, nəymiş bildim.

## BAHARI GÖRMƏYƏN YAZ

Gözəlliyimdən yara alıram
Küçələr dolusu yalqızıq bu gün...

Yaşıllar sarıya boyanarkən
Qəmzənə sarılmaqdan yorğun təbəssüm,
Quruyur çağlayan çay da.
Göy girir mənim köksümə
Özümlə baş-başa qalıram.

anlamıram ki, bəzən,
səbrimmi daşmaqda, yoxsa eşqimmi
tutundukca yıxılıram şeirə.

Bu il baharla görüşmədi yaz.
İki göyərçin qondu çiynimə.
Biri ümid qarası, biri isə bəmbəyaz.

Qaranlığını ümidimdən alan şəhərimin,
Bulvarını bəzəyir adın
Avtobuslar dolusu kəlmələrlə
Əzilir küçədə yalqız bir qadın.
Laləli şeirlərə sinmək istərkən
Dağıntıları qalır taxta bir oturacaqda,
Kölgəsinə güvəndiyi bir dağın.

Mən bu dağınıq bədənimi
Gizli misraların içində gizləyirəm,
Yandıracaq bir gəmim də yox üstəlik,
Xəyalını səsinlə yuduğum günlərin.
Gözəlliyindən yaralanıram.

Alışan kəlmələrin yanmasını seyr edərkən siz,
Qəmli çöhrələrə təbəssüm dağıdaraq
Sirli bir zamana salamlar deyirəm,
Gözləyəni qalmamış bir dayanacaqda,
Gülünc düşüncəsiylə tramvaya yollanan
Susqun bir söz oluram günün sonunda.

Səsimi bir mələyin qəlbində qoyub,
Sonsuzluğa gedirəm bu gün əbədi gülmək üçün.

## ÇAYIN KƏNARINDA

Bir sahibsiz eşqlə ölməkdəyəm ehmalca,
Məryəmin nəfəsi içimdə can çəkişir.
Qorxulu bir vadidə ləngərli bir yerişlə,
Susqunluğu seyrək saçlarına sarılıb
Sənə Tanrım deməkdən qorxsam
Məni Allah eşqinə bağışla.

Dünyadan qaçmaq üçün şeirə sığınır kimi
Eşqə yetişmək üçün dünyaya hey gec qalan
Zeytunu vəənciri qida edib özünə
Bir insan uzaqlara necə gedərsə
Şeirlərim içimdə o cür duadır.

Artıq eşqli sözlər də üşüyür bulağımda
gözlərim duvağını örtmüş bir gənc qız
bəysiz bir gəlin daşıyır ovuclarında.
Qəlbimdə yaralı Məryəm
Mən hey danışmağa susayaram.
Çayımı qurudan günəşi anladacaqdım.

Bir mağara sərinliyi axtarır şəhər
xoşbəxtlik məscid həyətində göyərçin
dalıb-dalıb susuram bir dalanı
gerildikcə içimə axır qisas.
Gizlənir hey bir ayə arxasına.
Xəfif bir nəzər bəlkə




Bir lalənin hikkəsi
Bağlayır əllərimi.

Çay kənarında gözləyən
gəlinlik geymiş qıza mərhəba demək üçün
sevdalara bu vida

bənzərsiz bir Eşqə yol almışam ehmalca
qəlbimdə yaralı Məryəm.
Təhlükəli bir vadidə ləngərlə yeriyirəm
Susqunluğun seyrək saçlarına sarılaraq
Sənə Tanrım deməkdən qorxuramsa hələ
Məni Allah eşqinə bağışla.

## QAÇARKƏN UŞAQLAR

Mən lalələrin uçan kəpənəyi
Hansı çayda boğulmuşam bilmirəm.
Səmada çərpələng uçursun deyə
Qaçarkən uşaqların ardından.

Cibimdə nərgiz qoxulu şeirlərlə
Eşqə uzanan dar bir yolda addımlaram.
Dodağımda fit, yaralı türkülərlə,
Göyü çırpan quşun yolçusuyam.
Ovcumdan çıxıb getməkdə dünya.

Sahibsiz yaralarla böyüyürəm,
Qırıq bir baxış qalmaqda günün tənhalığında
Bəlkə çilə düşər deyə ayaza
Nəşə dağıtmaqdayam uşaqlara.
Lütfən məni köksümdə quşlarımla xatırla.

Axşam düşür fərqinə varmadan,
Üsküdardan Camlıcaya
Hüznümə yoldaşlıq etmir qağayılar da
Ümidə uzanan yoxuşlarda
Yaşıl bir röya yağmaqda yorğunluğuma.

Böyüsəm də
Bir yanım yarım hələ
Gec qaldığım zamanların insafsız divarında
Şeirə söykənib nəfəsimi acıdıram ara-sıra
Lütfən məni qanadığım şeirimlə xatırla.

Öpərkən xınalı göyərçin
Yorğun əllərindən yaşlı körpənin.
Boşluğa dalan gözlərimlə
Nəbzimdən əskilirəm.
Sevənlər sevdiyini görmək üçün uyuyur
Mən səni görmək üçün mehraba baxmaqdayam
Bir dilənçi duası qoyaraq qaranlığa
Səssizcə dalıb gedirəm
kabusları bölmək üçün sığındığım yuxuya.
Lütfən məni ağrıyan nəfəsimlə xatırla.

Yalanlar məngənəsində
Qınından çıxmış bir üsyan
Dağlar ardında sirr: Anka
Qaçmaqdayam zamanla.
Bilirsən
Buraxsan əllərimi
Yıxılar köhlən, yıxılar ümid,
Varlığını yalqızlığıma bağışla.

Tutunduğum aminlər yanarsa əgər
Qəlbimin ortasında dar ağacı qurular.
Suya enən ala gözlü ceyranlar deyil
Susuz çöllərimdə kor bir dərviş vurular.

Qoymaqdayam son duamı mələklərin ovcuna
Lütfən məni tək sevgimlə xatırla.

**Türkiyə türkcəsindən uyğunlaşdıran:**
**İntiqam Yaşar**